# ALİMİN PARLAQ QƏLƏBƏSİ




Yazıçılar Birliyinin İraq-türkman ədəbiyyatı və mədəniyyəti üzrə müşaviri, Birliyin Təftiş Komissiyasının sədri, "Ədəbiyyat qəzeti"nin redaksiya heyətinin üzvü, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev məhsuldar yazar və alimlərimizdəndir. Ötən il onun ulu öndərimiz Heydər Əliyev və möhtərəm Prezidentimiz İlham Əliyevə həsr etdiyi "Xilaskarlar", "Qəbələ keçmişdə və günümüzdə" və "İraq-türkman poeziya antologiyası"nın 2-ci cildi çap olunub.

Türk dünyasında ədəbi əlaqələr, folklorşünaslıq və ədəbiyyatşünaslıq sahəsində yaxşı tanınan, monoqrafiyaları Türkiyə, İraq, İran və Azərbaycanda nəşr edilən, tədqiqatları yüksək qiymətləndirilən alimin xidmətləri böyükdür. Odur ki, bu günlərdə Türkiyədən gələn fərəhləndirici xəbərə sevindik.


TÜRK DÜNYASI ARAŞTIRMALARI ULUSLARARASI İLİMLER AKADEMİSİ

AKADEMİK ÜYE DİPLOMASI

TÜRK DÜNYASI ARAŞTIRMALARI ULUSLARARASI İLİMLER AKADEMİSİ BİLİMSEL GENEL KURUL ÜYELERİ KARARIYLA

Sn. Prof. Dr. GEZENFER MEHEMMED oğlu PAŞAYEV

(Azerbaycan)

TÜRK DÜNYASI ARAŞTIRMALARI ULUSLARARASI İLİMLER AKADEMİSİNİN AKADEMİK ÜYESİ SEÇİLMİŞTİR.

Başkan Prof. Dr. HASAN AHMET

Genel Sekreter Prof. Dr. Tuncay PALTA



Türk Dünyası Araşdırmaları və Uluslararası Elmlər Akademiyası Təltif Komitəsinin 17 dekabr 2021-ci il tarixli qərarı ilə görkəmli alim üstün xidmətlərinə görə "Qızıl ulduz" medalı ilə təltif edilmişdir.

Alim, eləcə də Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyası Elmi Şurasının ümumi yığıncağında Akademiyanın akademiki seçilmişdir.

17 dekabr 2021-ci il tarixdə Ankarada Akademiyanın başqanı Prof.Dr.Hasan Ahmet və genel sekretar Prof.Dr.Tuncay Palta tərəfindən imzalanmış "Qızıl ulduz" medalının vəsiqəsini və Uluslararası Elmlər Akademiyasının akademiki diplomunu "Azərkitab"da Qəzənfər müəllimin "Qəbələ keçmişdə və günümüzdə" kitabının təqdimatı mərasimində Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının Azərbaycan təmsilçisi professor Elçin İsgəndərzadə təqdim etmişdir.

Görkəmli alim və yazıçımızı bu münasibətlə ürəkdən təbrik edir, yaradıcılığında yeni-yeni uğurlar, möhkəm cansağlığı diləyirik.

***Azərbaycan Yazıçılar Birliyinin katibliyi***
***"Ədəbiyyat qəzeti"nin əməkdaşları***